# İDMAN

www.azsport.az

Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI

№ 8 (7103) 27 aprel 2021-ci il Qiyməti 40 qəpik


## Qılıncoynadanımız "Tokio-2020" Olimpiadasına lisenziya qazanıb



*Azərbaycan qılıncoynadanı Anna Başta "Tokio-2020" Yay Olimpiya Oyunlarına milli komandamız adına növbəti lisenziyanı qazandırıb. İdmançımız bu uğura aprelin 25-də İspaniyanın paytaxtı Madrid şəhərində keçirilən Avropa Olimpiya Təsnifat Turnirində nail olub.*

Qrup mərhələsində keçirdiyi 6 görüşdən 3-nü qalib başa vuran sablyaçımız ardınca pley-off mərhələsində də məğlubiyyətsiz irəliləyib.

Anna bu mərhələdə keçirdiyi görüşlərdə yüksək əzmkarlıq nümayiş etdirərək parlaq çıxışla yadda qalıb. Təmsilçimiz pley-offun birinci görüşündə İspaniya təmsilçisi Arakelli Navarra ilə qarşılaşıb. Gərginliyi ilə yadda qalan görüşdə A.Başta 15:14 hesablı qələbə qazanıb. Növbəti mərhələdə sablyaçımız Gürcüstan idmançısı Teodora Kakianini 15:10 hesabı ilə üstələyərək ən güclü 4 qadın sablyaçı sırasına yüksəlib. Burada polşalı Silviya Matuzjakla qarşılaşan Anna zəfər yürüşünü davam etdirib. Bu dəfə 4 xallıq fərqlə (15:11) qalib gələn qılıncoynadanımız turnirin finalına vəsiqə qazanıb.

Almaniyalı Anna Limbaxla həlledici görüş gözlənildiyi kimi çətin alınıb. Ancaq sonda daha dəqiq olan Anna Başta rəqibini 15:13 hesabı ilə məğlub edərək Avropa Olimpiya Təsnifat Turnirinin qalibi olub.

Beləliklə, Anna Başta Tokioda ölkəmizi təmsil edəcək.

## Güləşçilərimiz Avropa çempionatında uğurla çıxış ediblər



***Sərbəst güləşçilərimizdən 4 medal***

Aprelin 19-dan 25-dək Polşanın paytaxtı Varşavada sərbəst, yunan-Roma güləşi və qadın güləşi üzrə Avropa çempionatı keçirilib.

Böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında qitə birinciliyində Əfqan Xaşalov (57 kq), Əhmədnəbi Qvarzatilov (61 kq), Əli Rəhimzadə (65 kq), Turan Bayramov (70 kq), Əşrəf Aşırov (74 kq), Rəşad Yusifli (79 kq), Hacımurad Məhəmmədsəidov (86 kq), Osman Nurməhəmmədov (92 kq) və Şamil Zubairov (97 kq) sərbəst güləş üzrə mübarizə aparıblar.

Yarışda güləşçilərimizdən Turan Bayramov səkkizdəbir finalda Böyük Britaniya təmsilçisini çətinlik çəkmədən üstələyib. Türkiyə güləşçisi ilə qarşılaşma da gərgin mübarizə şəraitində keçib. Bayramov hesabda 3:2 öndə olarkən rəqib zədələndiyi üçün görüş saxlanılıb və həmyerlimiz yarımfinala yüksəlib. Böyüklərin Avropa çempionatında debüt edən Turan ukraynalı rəqibinə də gücünü göstərərək finalda iştirak hüququ qazanıb. Lakin həlledici mərhələdə rusiyalı rəqibi İsrail Kasumovun öhdəsindən gələ bilməyən güləşçimiz gümüş medalla kifayətlənib.

Komandamızın digər üzvü Əfqan Xaşalov isə ilk görüşdə yunan rəqibinə vaxtından əvvəl qalib gəlib. Həmyerlimiz daha sonra rumıniyalı güləşçi ilə gərgin keçən görüşdə də sevinən tərəf olub və yarımfinala adlayıb. Ancaq finalın bir addımlığında Rusiya təmsilçisi ilə bacarmayıb. Bürünc medal uğrunda görüşdə Belarus idmançısı ilə qarşılaşan idmancımız son saniyələrdə sevimli fəndini uğurla yerinə yetirərək karyerasında ilk dəfə böyüklər arasında Avropa üçüncüsü olub. Təmsilçimiz yarış təəssüratları ilə bağlı fikirlərini Güləş Federasiyasının saytı ilə bölüşüb:

*"Avropa çempionatı mənim üçün çox önəmli idi. Bir ildən artıq idi güləşmirdim. Sonuncu dəfə ötən il Romada keçirilən qitə birinciliyində iştirak etmişdim.*

səh. 2

## 2021 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq *qərara alıram:*

**1.** Müəyyən edilsin ki, 2021 Formula 1 Azərbaycan Qran Prisinin təşkili və keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2021-ci il mayın 1-dən iyunun 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

**2.** Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

**2.1.** Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

**2.2.** Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi 2021 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin və bu məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2021 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 aprel 2021-ci il.***

## 2021-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Müəyyən edilsin ki:

**1.1.** 2021-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun - üç qrup və bir 1/4 oyununun (bundan sonra - oyunlar) Bakı şəhərində keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2021-ci il mayın 1-dən iyulun 5-dək Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində viza ala bilərlər;

**1.2.** oyunların təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyətinə cəlb edilən və müvafiq qaydada akkreditasiyadan keçmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur.

**2.** Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

**2.1.** oyunların Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin və ya Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəsmi dəvət məktubu;

**2.2.** Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya digər sənəd;

**2.3.** Bakı şəhərində keçiriləcək oyunlarda iştirak edən futbol komandalarının təmsil etdikləri ölkələrin vətəndaşları və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün oyuna bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

**3.1.** oyunlarla əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısı üzrə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə Avropa Futbol Assosiasiyaları Birliyinə (UEFA) və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

**3.2.** oyunlarla əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, habelə Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuş həyata keçirən aviasiya şirkətlərinə oyunlarla əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 aprel 2021-ci il***

# Güləşçilərimiz Avropa çempionatında uğurla çıxış ediblər

*(Əvvəli 1-ci səhifədə)*

*AÇ ərəfəsində Kiyev turnirində iştirak etdim. Həmin yarışda məğlub olduğum belaruslu güləşçiyə burada qalib gəldim. Əlbəttə, forma yığmaq üçün zaman lazım idi. Ancaq bunun üçün vaxtımız çox az idi. Məşqçilərimiz sağ olsun. Yaxşı təlim-məşq toplanışı keçdik. Şükürlər olsun ki, medalsız qalmadım. Qismət olsa, Olimpiadada çempion olmaq istəyirəm. Bayrağımızı orada da dalğalandırmağı arzulayıram.*

*Yarış ağır keçdi. Çünki çoxdandır güləşmirdim və çəki salmırdım. Yarımfinalda Rusiya güləşçisiylə görüşdə vaxta görə yanıldım. Elə bildim ki, hələ zamanım var. Fəndi axıra kimi icra edə bilsəydim, finala çıxardım. Uzun müddət məşqlərdən uzaq qalmağın da müəyyən qədər rolu oldu. Ancaq səhvlərimin üzərində işləyib, onları aradan qaldırmaq üçün vaxtımız var".*

Qeyd edək ki, bir neçə ay əvvəl 2-ci Qarabağ müharibəsində iştirak edən Xaşalov güləş xalçasına qayıtdıqdan sonra ilk nüfuzlu yarışda - Avropa çempionatında iştirak edib.

Daha bir medalı komandamıza Əli Rəhimzadə qazandırıb. O, startda erməni güləşçini məğlub edib. Gürcüstan təmsilçisini də yolundan kənarlaşdıran Əli də adını yarımfinala yazdırıb. Bu mərhələdə Rusiya güləşçisi ilə görüş olduqca maraqlı alınıb. Rəhimzadə hesabda 4:0 öndə olsa da, ikinci hissədə təşəbbüsü əldən verib və finala çıxa bilməyib. Ancaq üçüncü yer uğrunda ukraynalı güləşçi ilə gərgin mübarizə şəraitində keçən qarşılaşmada o, sevinən tərəf olub. Beləliklə, Əli ardıcıl ikinci dəfə Avropa çempionatının bürünc medalına sahib çıxıb.

Ötən il Romada keçirilən analoji yarışda eyni uğura imza atan sərbəst güləşçimiz qitə birinciliyindəki çıxışı haqqında Güləş Federasiyasının saytına açıqlama verib:

*"Buraya çempion olmağa gəlmişdim. Ötən il Avropa çempionatında bürünc medal qazanmışdım. Ona görə də bu dəfə hədəfim yalnız qızıl medal idi. Ancaq yarımfinalda Rusiya güləşçisinə məğlub oldum. Hər halda, medalsız qalmadım. Buna da şükür. Qismət beləymiş. İnşallah, növbəti yarışlarda çempion olaram.*

*Əslində, digər görüşlərim rahat keçdi. Düzdür, erməni güləşçisi ilə qarşılaşmada hesab 2:1 oldu. Hətta xəbərdarlıq xalı verilməsəydi belə ona qalib gələcəyimə əmin idim. Lazım olan xalı alacaqdım. Güləş üslubum belədir. Adətən xallarımı sona yaxın alıram. Gürcüstan güləşçisinə isə ümumiyyətlə, rahat qalib gəldim. Bürünc medal uğrunda görüşdə son 30-40 saniyəni gözləyirdim ki, fənd edib xalımı alım. Belə də oldu".*

Üçüncü bürünc medal ağır çəkili güləşçimizdən gəlib. Yığmamızın üzvü Osman Nurməhəmmədov ilk görüşdə alman güləşçisi üzərində inamlı qələbədən sonra bolqarıstan idmançısına da qalib gələrək yarımfinala yüksəlib. Ancaq finalın bir addımlığında Rusiya güləşçisinə məğlub olan Osman aprelin bürünc medal uğrunda görüşə çıxıb. Böyüklərin qitə birinciliyində debüt edən Nurməhəmmədov ukraynalı rəqibini üstələyərək yığmamıza sonuncu medalı qazandırıb.

Osman yarışdakı çıxışı barədə Azərbaycan Güləş Federasiyasının saytına bunları deyib:

*"Bu, mənim ilk ciddi yarışım idi. Avropa çempionatına hazırlığımız yüksək səviyyədə keçmişdi. İlk görüş hər zaman çətin keçir. Almaniya güləşçisinə qalib gəldikdən sonra daha da ruhlandım. İkinci görüşdə Bolqarıstan güləşçisinə qalib gəldim. Ancaq yarımfinalda Rusiya təmsilçisiylə mübarizədə təcrübə çatışmazlığından məğlub oldum. Növbəti günə kökləndim. Nəyin bahasına olursa-olsun qələbə qazanmaq haqqında düşünürdüm. Bürünc medal uğrunda görüşü səhvsiz keçirdim və Avropa üçüncüsü oldum. Növbəti dəfə çempion olmağa çalışacağam. Yığma komandanın bütün məşqçilərinə və yüksək səviyyədə təlim-məşq toplanışı keçməyimiz üçün şərait yaradan federasiya rəhbərliyinə təşəkkürümü bildirirəm. Qazandığım bu medalı azarkeşlərə həsr edirəm".*

Beləliklə, bir gümüş və üç bürünc medal qazanan komandamız 95 xal toplayıb və 3-cü pillədə qərarlaşan Gürcüstandan cəmi 1 xal geri qalıb. Yığmamıza ən çox xalı gümüş medala sahib çıxan Turan Bayramov (70 kq) qazandırıb - 20 xal. Bürünc medalı boynundan asan güləşçilərimiz - Əfqan Xaşalov (57 kq), Əli Rəhimzadə (65 kq) və Osman Nurməhəmmədov (92 kq) hərəyə 15, beşinci yeri tutanlar - Əhmədnəbi Qvarzatilov (61 kq), Rəşad Yusifli (79 kq) və Şamil Zubairov (97 kq) isə 10 xalı komandamızın hesabına yazıb.

Rusiya 206 xalla birinci, Ukrayna isə 113 xalla ikinci olub.

Qeyd edək ki, millimiz bu dəfə Avropa çempionatına əsasən gənc güləşçilərlə qatılıb.

### *Mariya Stadnik 8-ci dəfə Avropa çempionu olub*

Qadın güləşi üzrə yığmamızı qitə birinciliyində baş məşqçi Aslan Ağayevin rəhbərliyi altında Mariya Stadnik (50 kq), Tatyana Varansova (53 kq), İrina Netreba (65 kq), Elis Manolova (68 kq) və Səbirə Əliyeva (76 kq) təmsil ediblər.

Güləşçilərimizdən millimizin lideri Mariya Stadnik 1 il yarımlıq fasilədən sonra güləş xalçasına inamlı qələbə ilə qayıdıb. Təcrübəli güləşçimiz Rusiya idmançısına heç bir şans verməyib və adını yarımfinala yazdırıb. Bu mərhələdə ukraynalı güləşçiyə də aman verməyən Stadnik finala yüksəlib. Aprelin 22-də bolqar güləşçi ilə həlledici qarşılaşmaya çıxan Mariya bu rəqibinə də gücünü göstərərək 8-ci dəfə Avropa çempionu olub!

Mariya Stadnik mətbuata müsahibəsində Azərbaycanda yaxşı hazırlıq keçdiyini, Avropa çempionatı ərəfəsində iki təlim-məşq toplanışında iştirak etdiyini bildirib. O, qeyd edib ki, bu yarış Olimpiadaqabağı gücünü yoxlamaq üçün lazım idi: *"İstənilən medalın insana bəxş etdiyi hisslər var. Ona görə də hər medal dəyərlidir. Uzun fasilədən sonra güləşmək bir qədər çətin idi. Yarışlar yox idi deyə narahatlıq keçirirdim. Bundan sonrakı plan Olimpiadaya hazırlıq xarakterli təlim-məşq toplanışlarında iştirak etməkdir".*

O, qeyd edib ki, Olimpiadadan sonra karyerasını bitirib-bitirməyəcəyi hələ müəyyən deyil: *"Olimpiadadan sonra karyeramı bitirib-bitirməyəcəyimi hələ deyə bilmərəm. Hələ ki, diqqətimi Olimpiya Oyunlarına yönəltmişəm. Sonrasına baxarıq. Yaşayarıq, görərik. Mənə dəstək olan*



*hər kəsə təşəkkürümü bildirirəm. Zala azarkeşləri buraxmasalar da, dəstəyi hiss edirdim. Çoxlu təbrik mesajları aldım. Şadam ki, qələbəmlə insanları sevindirə bildim".*

### *Yunan-Roma güləşçilərimiz yarışı 3 medalla başa vurublar*

Yunan-Roma güləşi üzrə millimiz Avropa çempionatında böyük məşqçi Rövşən Bayramov və məşqçi Akif Əliyevin rəhbərliyi altında Eldəniz Əzizli (55 kq), Murad Bazarov (60 kq), Taleh Məmmədov (63 kq), Namaz Rüstəmov (67 kq), Xasay Həsənli (72 kq), Sənan Süleymanov (77 kq), Tuncay Vəzirzadə (82 kq) və Zamir Məhəmmədovla (97 kq) təmsil olunub.

Eldəniz Əzizli qitə birinciliyinə inamlı qələbə ilə start verib. Dünya və Avropa çempionumuz Bolqarıstan güləşçisinə elə ilk hissədə məğlubiyyətə uğradıb. Dörddəbir finalda ən yüngül çəkidə son dünya çempionu Nuqzari Tsurtsumia ilə qarşılaşan həmyerlimiz rəqibinə heç bir şans verməyərək yarımfinala yüksəlib. Bu mərhələdə Rusiya güləşçisi ilə qarşılaşan Eldəniz hakimlərin müəmmalı qərarları fonunda rəqibinə məğlub olub.



Üçüncü yer uğrunda almaniyalı güləşçi ilə mübarizədə pəhləvanımız cəmi 1 dəqiqə ərzində rəqibinə tam üstünlüklə qalib gəlib. Beləliklə, E.Əzizli ardıcıl 3-cü dəfə qitə birinciliyinin bürünc medalını qazanıb. Bu, Eldənizin ümumilikdə 5-ci AÇ medalı olub.

*(Ardı 3-cü səhifədə)*

# Güləşçilərimiz Avropa çempionatında uğurla çıxış ediblər

*(Əvvəli 2-ci səhifədə)*



Federasiyanın saytına açıqlamasında güləşçi yaxşı formada olduğunu bildirib. O, qeyd edib ki, müəyyən qədər hakimlərin, müəyyən qədər də öz səhvləri səbəbindən çempion ola bilməyib: *"Ancaq ruhdan düşmürəm. Dünya çempionatına hazırlaşıb, nəticəmi daha da yaxşılaşdırmağa çalışacağam. Son 4 ildə bütün Avropa və dünya çempionatlarında medal qazanmışam. 2019, 2020 və bu il əldə etdiyim bürünc medalların hamısı qızıl ola bilərdi. Ancaq qismət belə imiş. Digər yarışlarda çempionluğu əldən verdiyim üçün hardasa səbəblər tapmaq olardı. Ancaq bu yarışa çox yaxşı hazırlaşmışdım. Çəkisalmada heç bir problem olmamışdı. Özümü çox gümrah hiss edirdim. Yarımfinalda Rusiya güləşçisiylə görüşü də düzgün qurmuşdum. Son 10 saniyədə qələbə heç nədən əlimdən çıxdı. Yoxsa finalda rahat çempion olacaqdım. Çempionluğu əldən verdiyim üçün təəssüflənirəm".*

Komandamızın digər üzvü Taleh Məmmədov ilk görüşdə bolqar həmkarına qalib gəlib. Dörddəbir finalda erməni güləşçisi ilə prinsipial görüşə çıxan təcrübəli pəhləvanımız xarakter göstərərək son dəqiqədə aldığı 2 xalla adını yarımfinala yazdırıb. Latviya güləşçisinə də gücünü göstərən Taleh karyerasında ilk dəfə Avropa çempionatının finalına yüksəlib. Həlledici görüşdə Rusiya təmsilçisinə məğlub olan T.Məmmədov gümüş medalı boynundan asıb.

Daha bir güləşçimiz - Sənan Süleymanov (77 kq) bürünc medal qazanıb. idmançımız səkkizdəbir finalda finlandiyalı rəqibini vaxtından əvvəl üstələyib. Dörddəbir finalda Türkiyə güləşçisi ilə mübarizədə 5:1 öndə olsa da, təşəbbüsü əldən verərək məğlub olub. Rəqib finaladək irəlilədiyi üçün həmyerlimiz təsəlliverici görüşə çıxıb. Ermənistan güləşçisini xalçaya çıxmağa peşman edən güləşçimiz 3-cü yer uğrunda mübarizə aparmaq hüququ əldə edib. Son qarşılaşmada Ukrayna idmançısı üzərində inamlı qələbə qazanan Sənan üçüncü yeri tutub.

Güləş Federasiyasının rəsmi saytına açıqlamasında S.Süleymanov hakimlərin haqsızlığı ilə üzləşdiyini bildirib: *"Özümü yarışa hazır hiss edirdim. Ötən il çempion olmuşdum. Bu il də eyni nəticəni təkrarlamaq istəyirdim. Ancaq müəyyən səbəblərdən qismət olmadı. Hakimlərin haqsızlığı ilə üzləşdim. Məğlubiyyətə bəhanə gətirmək istəmirəm. Ancaq fikrimcə, Türkiyə güləşçisi ilə görüşdə rəqibin ilk fəndində xal verilməməli idi. Bu epizoda qarşılaşmadan sonra bir neçə dəfə baxmışam. Üstəlik, parterdə olarkən rəqibə əlavə iki xalın verilməsini də doğru qərar saymıram. Etirazımız da qəbul olunmadı. Bu da mənə psixoloji cəhətdən mənfi təsir etdi. Alınmadı. Ancaq bürünc medal qazana bildim. Buna da şükür".*

Beləliklə, yunan-Roma güləşçilərimiz Avropa çempionatını 3 medalla başa vurublar.

# Tokio-2020-yə Azərbaycan Paralimpiya nümayəndə heyətinin şef-de missionu müəyyənləşib

***Azərbaycan Milli Paralimpiya Komitəsində (AMPK) "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarına hazırlıq ilə bağlı işlər davam etdirilir.***

Komitə "Tokio-2020"yə hazırlığın sonuncu mərhələsinə başlayıb. Bununla bağlı AMPK-nın prezidenti İlqar Rəhimovun sədrliyi ilə iclas keçirilib.

İclasda İ.Rəhimov komitə əməkdaşlarına hazırlıqla bağlı müvafiq tapşırıqlar verib və eyni zamanda, "Tokio-2020" Yay Paralimpiya Oyunlarında iştirak edəcək Azərbaycan komandasının şef-de missionunu və onun müavinlərini təyin edib. Komitə prezidentinin qərarına əsasən, Rauf Mürsəlov komandanın



şef-de missionu, Elxan Rəhimov, Azər Tapdıqov və Leyli Yusifli şef-de missionun müavinləri təyin ediliblər.

# Azərbaycan batutçuları beynəlxalq turnirdə uğurla çıxış ediblər

***Batut gimnastikası üzrə onlayn keçirilmiş "Trampoline Hopes Cup" adlı beynəlxalq turnirin qalibləri müəyyənləşib.***

Yarışda ölkəmizi 11-12 yaş qrupunda Ammar Baxşalıyev, 13-14 yaş qrupunda Maqsud Mahsudov və Hüseyn Abbasov, böyüklər arasında isə Selcan Mahsudova təmsil ediblər.

Perspektivli batutçularımız 20 ölkədən 300-dən çox idmançının iştirak etdiyi bu turnirdən tam bir medal dəstini qazanıblar. Belə ki, A.Baxşalıyev birinciliyi əldən verməyib. 13-14 yaşlı gimnastlar arasındakı təmsilçilərimiz - M.Mahsudov və H.Abbasov müvafiq olaraq 1 və 2-ci yerləri öz aralarında bölüşdürüblər. Böyüklər arasında çıxış edən gimnastımız S.Mahsudov da komanda yoldaşlarından geri qalmayıb. O, bu yarışda üçüncü olub.

# Cüdoçularımız Avropa çempionatında 2 medal qazanıblar

***Aprelin 16-da Portuqaliyanın paytaxtı Lissabonda cüdo üzrə Avropa çempionatı keçirilib.***

"Tokio-2020"yə lisenziya xarakterli yarışda 9 idmançımız iştirak edib. Belə ki, kişilər arasında Kəramət Hüseynov, Orxan Səfərov (hər ikisi 60 kq), Murad Fətiyev, Hidayət Heydərov (hər ikisi 81 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq) və Uşangi Kokauri (100 kiloqramdan yuxarı) mübarizə aparıblar. Qadınlar arasında isə İrina Kindzerska (78 kiloqramdan yuxarı) gücünü sınayıb.

Təmsilçilərimizdə 2-si medal qazana bilib. Komandamıza ilk medalı kişilər arasında mübarizə aparan Kəramət Hüseynov (60 kq) qazandırıb. İlk qarşılaşmasında moldovalı Nikolae Foca, daha sonra Türkiyə təmsilçisi Mehrac Akkusu məğlub edərək dörddəbir finala vəsiqə qazanan idmançımız bu mərhələdə ispaniyalı Fransisko Qarriqosa məğlub olub. Təsəlliverici görüşdə italiyalı Anjelo Pantano ilə mübarizə aparan K.Hüseynov təsəlliverici görüşdə italiyalı Anjelo Pantanonu məğlub edərək üçüncü yer uğrunda qarşılaşmaya vəsiqə qazanıb. O, bu mərhələdə rəqibi Bolqarıstan təmsilçisi Yanislav Qerçev üzərində qələbə qazanaraq bürünc medal qazanıb.

Komandamıza digər medalı Zelim Kotsoyev (100 kq) qazandırıb. Təmsilçimiz əvvəlcə avstriyalı Ayron Fara, daha sonra macarıstanlı Jombor Veqi məğlub etsə də,



dörddəbir finalda Gürcüstan təmsilçisi İlya Sulamanidzenin öhdəsindən gələ bilməyib. Təsəlliverici görüşdə fransalı Siril Maret üzərində qələbə qazanan cüdoçumuz bürünc medal görüşünə vəsiqə qazanıb. Növbəti mərhələdə Z.Kotsoyev rusiyalı Niyaz İlyasovu məğlub edərək bürünc medal qazanıb.

Avropa çempionatında 45 ölkədən 300-dən çox idmançı mübarizə aparıb.

# AMADA-da narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə həsr olunmuş görüş keçirilib

***Aprelin 23-də Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun rəhbərlikləri arasında görüş keçirilib.***



AMADA-nın direktoru Şəfəq Hüseynli, Dövlət Komissiyasının İşçi Qrupunun rəhbərli Fəqan Şahverdiyev və digər əməkdaşların iştirak etdiyi görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"ndan irəli gələn məsələlər müzakirə edilib.

Dövlət Komissiyasının İşçi Qrupunun rəhbəri F.Şahverdiyev bildirib ki, Dövlət Proqramının məqsədi respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınmasıdır. Bundan əlavə, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi də proqramda öz əksini tapıb.

İndiyədək bununla bağlı 3 dövlət proqramının müvəffəqiyyətlə tamamlandığını deyən F.Şahverdiyev 2019-2024-cü illər üçün nəzərdə tutulan növbəti proqramın da icrasının uğurla davam etdiyini bildirib.

Agentliyin direktoru Şəfəq Hüseynli bildirib ki, AMADA dövlət proqramının icraçı orqanlarının siyahısına əlavə edildikdən sonra öz fəaliyyətində narkotik vasitələr, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə daha geniş yer verib və bununla bağlı agentliyin 2021-ci il üçün iş planı hazırlanıb. İş planında narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə silsilə təlimlərin təşkili, narkotiklərin mənfi təsirini əyani şəkildə göstərən mobil və ya kompüter tətbiqlərinin, videoçarxların hazırlanması, narkotik vasitələrin yayılması ilə mübarizə sahəsində müasir metodiki vasitələrdən istifadə etməklə təbliğat işinin təşkili, bu istiqamətdə AMADA-nın saytı, sosial şəbəkələrdəki hesabları və digər internet resurslarının imkanlarından geniş istifadə edilməsi və sair məsələlər əksini tapıb. İş planında, həmçinin bu istiqamətdə mexanizmin təkmilləşdirilməsi üçün problemin idmançılar arasında yayılma miqyasını, potensialını, habelə narkotik maddələrin istifadəsinin doğura biləcəyi fəsadlar barədə idmançıların məlumatlılıq səviyyəsinin ölçülməsi məqsədilə sorğunun hazırlanması və respublika idman federasiyaları vasitəsilə idmançılar arasında keçirilməsi nəzərdə tutulur.

Görüşdə, həmçinin Dövlət Komissiyasının 2021-ci ilə dair İş Planında nəzərdə tutulmuş məsələlərin icrası, gələcəkdə görüləcək işlər və bu istiqamətdə koordinasiyalı fəaliyyətin qurulması məsələləri müzakirə edilib.

Qeyd edək ki, AMADA Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"-nın icraçı orqanlarının siyahısına əlavə edilib.

# Pandemiya əngəlini aşan Formula 1 yenidən Azərbaycanda



*Bakı ilk dəfə 2016-cı ildə dünyanın ən nüfuzlu avtoidman yarışı olan Formula 1 üzrə Avropa Qran-prisinə ev sahibliyi edib.*

Yarışın Azərbaycan paytaxtında keçirilməsi ilə bağlı "Formula One Management"in prezidenti ilə danışıqlar 2013-cü ildə başlanıb və sonrakı ilin martında ilkin müqavilə imzalanıb. Dövlətin xüsusi diqqət mərkəzində saxladığı hazırlıqlar yüksək səviyyədə aparılıb. Yekunda, Herman Tilkenin arxitektura bürosu tərəfindən işlənib hazırlanmış küçə trası layihəsi 2014-cü ilin oktyabrında rəsmi surətdə təqdim edilib. Qran-prinin promouteri və eyni zamanda yarışın keçirildiyi şəhər treki isə Bakı Şəhər Halqası ("Baku City Circuit") adlanıb.

***Bakı halqası şəhər trasları arasında ən sürətlisidir***

Bakı Şəhər Halqası şəhər trasları arasında birinci, uzunluğuna görə dünyada ikincidir. 6 kilometr uzunluğu olan və saat əqrəbi istiqamətinin əksinə hərəkət edən, Azadlıq meydanından başlayan yol, Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2.2 km (1.4 mil) dövrə vurur və Neftçilər prospektinə çıxaraq başlanğıc yerinə dönür. Trekin ən geniş yeri 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan bölmələrində, o cümlədən 7-ci və 8-ci döngələrdə 7.6 metr təşkil edir. Unikal xüsusiyyətlərə sahib olan Bakı trası ötən mövsüm 21-ci əsr Formula 1 yarışlarının keçirildiyi trasların reytinqində 5-ci yeri tutub. "The Race" kanalının tərtib etdiyi reytinqdə 12 tras yer alıb. Beləliklə, Bakı Şəhər Halqası İndianapolis (ABŞ), Valensiya (İspaniya), Soçi (Rusiya), Yas Marina (BƏƏ), Yonam (Cənubi Koreya), Sinqapur və Şanxay (Çin) traslarını qabaqlayıb.

***Azərbaycan Qran-prisinin 5 illik mənzərəsi***

Bakıda reallaşan Formula 1 yarışı əvvəlcə Avropa Qran Prisi adlandırılıb. Beynəlxalq Avtomobil Federasiyasının (FIA) Vyanada baş tutmuş Baş Assambleyasında qərar verildikdən sonra, 2016-cı ildə Azərbaycanda keçirilən Formula 1 üzrə Avropa Qran-prisinin adı və tarixi dəyişdirilib. Mötəbər yarış Avropa deyil, Azərbaycan Qran-prisi adlandırılıb. Yarışın tarixinin dəyişdirilməsində əsas məqsəd, ötən mövsüm eyni tarixdə baş tutan 24 saatlıq "Le Man" yarışı ilə üst-üstə düşməsi olub. Bakı Şəhər Halqasının icraçı direktoru Arif Rəhimov müsahibəsində həmin dəyişiklikləri şərh edərək deyib: *"Adı dəyişmək bir o qədər də çətin deyildi. Biz əvvəldən də belə etməyə hazırlaşırdıq. Əslində, bu, sırf texniki məsələ idi. Tarixi dəyişmək daha çətin oldu, amma bu məsələni də həll edə bildik. Ötən il başqa yarışla tarixlər üst-üstə düşdüyünə görə jurnalistlərin çoxu Bakıya deyil, həmin yarışa getmişdi. Bu il mərhələlər fərqli tarixlərdə keçirilir. Odur ki, mərhələ daha geniş işıqlandırılacaq, eləcə də televiziya tamaşaçıları iki hadisə arasında seçim etməli olmayacaqlar"*.



Həmin mövsüm Azərbaycan Qran-prisi 17-19 iyun tarixlərində baş tutub. 51 dövrəlik yarışın qalibi Niko Rosberq olub. İkinci və üçüncü yerlərə müvafiq olaraq almaniyalı Sebastiyan Fettel və meksikalı Serxio Peres layiq görülüblər.

2017-ci il Azərbaycan Qran-prisi iyunun 23-25-də keçirilib. Azərbaycan Qran-prisi Formula-1 üzrə dünya çempionatının 8-ci mərhələsində yer alıb. 51 dövrəlik yarışın yekununda Daniel Rikkardo qalib olub. Finlandiyalı Valtteri Bottas ikinci, Kanadalı Lens Stroll üçüncü yeri tutublar. Həmin ildə Bakıda keçirilən Formula-1 yarışı dünyanın aparıcı kütləvi informasiya vasitələri arasında keçirilmiş sorğularda avtoidman azarkeşləri, media nümayəndələri və "Paddok Klub"un təmsilçilərinin əksəriyyəti tərəfindən mövsümün "ən həyəcanlı və ən gözlənilməz anlarla dolu yarış"ı kimi qiymətləndirilib. Yarış zamanı Luis Hamilton ilə Sebastian Fettel arasında baş vermiş toqquşma avtoidman tarixinin ən yaddaqalan hadisələrindən olub.

2018-ci ilin Formula 1 mövsümü 245 gün - martın 25-dən noyabrın 25-dək davam edib. 21 mərhələdən ibarət olan mövsümdə pilotların 4-cü görüşü Bakı trasına təsadüf edib. Həmin mövsümdə Formula 1-in ilk yarışı Avstraliyada baş tutub və mövsümə Əbu-Dabi yarışı ilə yekun vurulub. 51 dövrəlik Bakı avtoyarışının finalında Luis Hamilton birinci olub. Finlandiyalı Kimi Raykkonen ikinci, Serxio Peres isə üçüncü olublar. Dünya çempionatının 21 mərhələsinin təhlili zamanı mütəxəssislər Azərbaycanın Qran-prisini həmin mövsümün ən yaxşısı adlandırıblar. Formula 1-in icraçı direktoru Ceyz Keri də açıqlamasında, paytaxtımızın Formula 1 yarışı üçün ideal məkan olduğunu diqqətə çatdırıb. "2018-ci ildə aparılan araşdırmalara əsasən Bakı ən çox şöhrət qazanmış yarış məkanı olub. Bunu xüsusilə azarkeşlər vurğulayıblar, - deyə Formula 1 Qrupunun baş icraçı direktoru əlavə edib.

2019-cu ildə dünya çempionatının ilk mərhələsinə Avstraliyadakı "Albert Park" trasında start verilib. Mövsümə dekabr ayında Əbu-Dabi Qran-prisi ilə yekun vurulub. Azərbaycan Qran-prisi Formula 1-in sayca 4-cü mərhələsi olub. Yarışın qalibi "Mercedes" komandasının pilotu Valteri Bottas olub. Onun komanda yoldaşı Luis Hamilton ikinci və "Ferrari" sürücüsü Sebastian Fettel üçüncü yerdə qərarlaşıblar.

Ötən il Formula 1 yarışının 22 mərhələdə keçirilməsi gözlənilsə də, COVİD-19 pandemiyasının davam etməsi təşkilatçıları planlarını dəyişməyə məcbur edib. Həmin mövsümün 5-7 iyun tarixlərində keçirilməsi planlaşdırılan Formula 1 Azərbaycan Qranprisi koronovirus pandemiyası səbəbindən ləğv olunub. Bu qərar Formula 1 rəhbərliyi, Beynəlxalq Avtomobil Federasiyası (FİA) və Azərbaycan Respublikası Hökuməti tərəfindən aparılmış birgə müzakirələr nəticəsində qəbul olunub.

2020-ci ilin sonlarında Formula 1 komandalarının rəhbərləri Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Jan Todt ilə 2021-ci il mövsümünün təqvimini müzakirə etmək üçün Portimaoda görüşüblər. 6 saat davam edən görüşdə bir sıra məsələlər, o cümlədən qənaət yolları, büdcə məhdudiyyətləri, yeni qaydalar, eləcə də növbəti mövsüm üçün təqvim müzakirə edilib. Layihə təqvimində 23 mərhələ yer alıb. Belə ki, dünya çempionatının ilk mərhələsi Bəhreynin Sahir trasında keçirilib. Mövsümə isə Əbu-Dabi Qran-Prisi ilə yekun vurulacaq. Azərbaycan Qran-prisinin təqviminə görə, Bakı şəhər halqasında yarışın iyunun 4-6-da keçiriləcəyi rəsmiləşib.

Nəhayət, 1 illik fasilədən sonra, sürət həyəcanı yenidən Bakıda yaşanacaq. Belə ki, Bakı Şəhər Halqası 5-ci dəfə Azərbaycan Qran-prisini qəbul edəcək. Yarış təqvimində sayca 6-cı mərhələdə yer alacaq "Kral yürüşü" artıq hazırlıqlara başlayıb. Hazırlıqlar ölkəmizdə karantin rejiminə uyğun aparılır. Builki yürüşü azarkeşlərin tribunalardan izləməsinə icazə verilməyəcək.

***Ölkəmizə gələcək əcnəbilər üçün yaşıl işıq...***

Aprelin 17-də Prezident İlham Əliyev "2021 Formula 1 Azərbaycan Qran-pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən, 2021 Formula 1 Azərbaycan Qran-Prisinin təşkili və keçirilməsi ilə əlaqədar Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2021-ci il mayın 1-dən iyunun 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

Sənədə əsasən viza ala bilmək üçün Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və eləcə də Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı kifayət edəcək.

***Səkinə Novruzqızı***

## Dünya paracüdoçuları mayda Bakıda yarışacaqlar

Dünya paracüdoçuları mayın 25-26-da Bakıda yarışacaqlar. Paracüdo üzrə Qran-Pri turnirinin əhəmiyyəti nəzərə alınaraq Bakıda keçirilməsinə icazə verilib.

Heydər Əliyev adına İdman Sarayında keçiriləcək yarışa 40-dan çox ölkənin nümayəndələrinin qatılacağı gözlənilir. Bununla bağlı Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimovun sədrliyi ilə təşkilat komitəsi yaradılıb.

Turnir "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarına reytinq xalı qazandırır.

Qran-Pri ölkəmizdə tətbiq edilən mövcud karantin qaydalarına, sanitar-epidemioloji tələblərə uyğun olaraq və tamaşaçı iştirakı olmadan keçiriləcək.

## Velosiped idmanının iki növü III Avropa Oyunlarının proqramına daxil edilib



2023-sü ildə Polşanın Krakov və Malopolye şəhərlərində keçiriləcək III Avropa Oyunlarının proqramına daha bir idman növünün daxil edilməsi təsdiqlənib. Proqramda velosipedin dağ və BMX fristayl növləri yer alıb. Polşadakı hər iki yarış həm də Avropa çempionatı statusu daşıyacaq.

Qeyd edək ki, III Avropa Oyunlarının 9 - 25 iyun 2023-cü ildə təşkili nəzərdə tutulub.

## Maks Ferstappen Emiliya-Romanya Qran-Prisinin qalibi olub



***Aprelin 16-18-də Formula 1 üzrə Emiliya-Romanya Qran-Prisi keçirilib.***

Mövsümün ikinci yarışı İtaliyanın "İmola" trasında baş tutub. 63 dövrəlik yarışın qalibi "Red Bull"un pilotu Maks Ferstappen olub. İlk üçlüyü "Mercedes"in pilotu Luis Hamilton və "McLaren"in üzvü Lando Norris tamamlayıb. M.Ferstappen cari mövsümün ilk, karyerasında isə 11-ci qələbəsini qazanıb.

Pilotların siyahısına 44 xalla Luis Hamilton başçılıq edir. Maks Ferstappen 43 xalla ikinci, Lando Norris isə 27 xalla üçüncü pillədə yer alıb. Konstruktorların mübarizəsində isə "Mercedes" 60 xalla birinci, "Red Bull" 53 xalla ikinci, "Maklaren" 41 xalla üçüncü yerdə gedir.

## Avropa Olimpiya Komitəsinin saytı azərbaycanlı gimnastın qələbə əzmindən bəhs edən məqalə dərc edib



*Məqalədə 21 yaşlı gimnastın Tokio Olimpiadasına lisenziya qazanan komandanın tərkibində yer aldığı qeyd olunub.*

MOK-un təşəbbüsü ilə AOK-un saytına təqdim olunan məqalədə Z.Hümmətova idman karyerasından, idmanın insanda tərbiyə etdiyi xüsusiyyətlərdən və qadının idmanda iştirakından bəhs edib.

"Bu il əsas məqsədim Olimpiya Oyunlarında Azərbaycanı layiqincə təmsil etməkdir", - müsahibəsində bu sözləri deyən bədii gimnastika üzrə milli komandamızın üzvü Z.Hümmətova 6 yaşından, valideynlərinin istəyi ilə məşğul olduğu bədii gimnastikanın həyatının ayrılmaz hissəsinə çevrildiyini bildirib. Müsahibədə gimnast milli komandanın tərkibindəki karyerasının maraqlı hekayəsini danışıb. Milli komandanın heyətində 10 yaşında çıxış etdiyi dövrlərdə zədəli olmasına baxmayaraq, yarışlarda fəallıq nümayiş etdirib, təslim olmayıb. Onun əzmkarlığını milli komandanın baş məşqçisi Mariana Vasileva görüb və çox bəyənib. O, Zeynəbi milli komandaya dəvət edib, həmçinin zədəsinin sağalması üçün reabilitasiya keçməsi tövsiyə olunub. On iki yaşında Zeynəb yenidən milli komandaya dəvət edilib və yığmanın tərkibində məşq etməyə başlayıb.

Müsahibəsində "Biz qadınlar hər bir çətinliklə mübarizə aparmağı bacarırıq" deyən Z.Hümmətova düşünür ki, məqsədyönlü olub çalışdığın halda idman qadınlar üçün çətin bir sahə deyil. O özü də malik olduğu bir çox xüsusiyyətlərə - əzmkarlığına, məqsədyönlülüyünə, çətinliklərə qarşı mübarizliyinə, dözümlülüyünə, dünyagörüşünə görə idmana minnətdardır.

Zeynəb Hümmətova idmanının onda formalaşdırdığı xarakter barədə belə deyib: "İdman ümumiyyətlə, insanda çox güclü bir xarakter yaradır. Çünki bütün çətinliklərə, günün necə keçməsinə baxmayaraq, mən xalçaya çıxanda fikirləşirəm ki, ölkəmi təmsil edirəm və mən hazırda özümü necə hiss etsəm də, Vətənimə borcluyam ki, ölkəmi layiqincə təmsil edim. İdman insanı daha güclü edir".

Z.Hümmətova ilk böyük uğurunu 2018-ci ildə qazanıb. O, komandanın tərkibində Avropa çempionatında iştirak edib və bürünc medala layiq görülüb. 2019-cu ildə keçirilən Dünya çempionatında uğurla çıxış edərək Olimpiya Oyunlarına lisenziya qazanıb. 2020-ci ildə baş tutan Avropa çempionatında iki bürünc, bir gümüş medal qazanan gimnast hazırda dördqat Avropa çempionatı mükafatçısı, bir sıra dünya kuboklarının medalçısıdır.

MOK Azərbaycan idmançılarının maraqlı həyat hekayələri, Azərbaycan Olimpiya tarixinin şanlı səhifələrindən bəhs edən məqalələrin EOC da daxil olmaqla, bir çox beynəlxalq nüfuzlu idman media platformalarında yayımlanması istiqamətində işləri davam etdirir.

## Yaqub Məmmədovun 75 yaşı tamam olub

***Azərbaycan Güləş Federasiyasının (AGF) idman şöbəsinin müdiri Yaqub Məmmədovun 75 yaşı tamam olub. Bu münasibətlə AGF-nin prezident əvəzi Namiq Əliyev aprelin 19-da yubilyar ilə görüşüb.***

AGF-dən bildiriblər ki, ona ən xoş arzularını çatdıran federasiyanın rəhbəri Azərbaycan güləşinin inkişafında göstərdiyi xidmətlərə görə təşəkkürünü bildirib. Öz növbəsində təbrikə görə N.Əliyevə və federasiyanın kollektivinə minnətdarlığını bildirən Y.Məmmədov ən böyük arzusunun qarşıdan gələn Olimpiadada güləşçilərimizin uğurlu çıxış etməsinin olduğunu dilə gətirib.

Qeyd edək ki, SSRİ-nin İdman ustası və Əməkdar məşqçisi, Əməkdar bədən tərbiyəsi və idman xadimi olan Y.Məmmədov Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən



"Şöhrət" ordeni ilə, eləcə də FILA-nın fəxri nişanı ilə təltif olunub. O, müxtəlif illərdə sərbəst və qadın güləşi üzrə yığmalarımızda baş məşqçi kimi fəaliyyət göstərib. Namiq Abdullayev məhz onun rəhbərliyi altında Sidney Olimpiadasının qalibi olub.

## Milli Gimnastika Arenası beynəlxalq yarışlara yenidən ev sahibliyi etməyə hazırlaşır

Milli Gimnastika Arenası bir illik fasilədən sonra beynəlxalq yarışlara yenidən ev sahibliyi etməyə hazırlaşır.

Qlobal COVID-19 pandemiyası səbəbindən təxirə salınmış və bu ilin may ayında keçirilməsi gözlənilən yarışların təşkilinə həmin tədbirlərin əhəmiyyəti nəzərə alınaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarı ilə icazə verilib.

Sözügedən yarışlar "Tokio-2020" Yay Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyan bədii gimnastika üzrə dünya kuboku (7-9 may), aerobika gimnastikası üzrə yaş qrupları yarışları (21-23 may) və bu növ üzrə dünya çempionatıdır (27-29 may).

Turnirlərin ölkəmizdə təşkil edilən mövcud karantin qaydalarına və sanitar-epidemioloji tələblərə uyğun olaraq və tamaşaçı iştirakı olmadan keçirilməsi planlaşdırılır.

Xatırladaq ki, qlobal COVID-19 pandemiyasına görə ölkəmizdə görülən təxirəsalınmaz və qabaqlayıcı tədbirlərlə əlaqədar 2020-ci ildə Bakıya həvalə olunmuş 8 beynəlxalq turnirdən yalnız ikisi baş tutub. Digər yarışlar ya ləğv edilib, ya da təxirə salınıb.

Bakıda keçiriləcək bədii gimnastika üzrə dünya kuboku yarışları "Tokio-2020"yə təsnifat xarakteri daşıyacaq

Mayın 7-9-da keçiriləcək dünya kuboku yarışlarında iştirak edəcək Azərbaycan milli komandasının heyəti açıqlanıb. Ölkəmizi fərdi proqramda Zöhrə Ağamirova və Arzu Cəlilova təmsil edəcəklər.

Ləman Əlimuradova, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Məryəm Səfərova və Darya Sorokinadan ibarət qrup hərəkətləri komandamız da medallar uğrunda mübarizə aparacaq.

## Bokşçularımızdan dünya birinciliyindən 1 bürünc medal




*Polşanın Keltse şəhərində gənc bokşçular arasında dünya birinciliyi keçirilib.*

Komandamızın heyətində Nicat Hüseynov (49 kq), Əli Zamanov (52 kq), Cəlal Qurbanov (60 kq), Elmir Novruzov (64 kq), Samir Nəsirov (69 kq), Cəfər Heydərli (75 kq), Murad Allahverdiyev (81 kq), Əsəd Baxışov (91 kq) mübarizə aparıblar.

Bokşçularımızdan yalnız 4-ü dörddəbir final mərhələsinə adlaya biliblər. Onlardan yalnız N.Hüseynov yarışın yarımfinalına vəsiqə qazanıb. Bokşçumuz yarımfinala gedən yolda macarıstanlı Levent Eqedusu mundialdan kənarlaşdırıb. O, rəqibinə 5:0 (30:25, 30:25, 29:27, 30:26, 30:24) hesabı ilə qalib gəlib. İdmançımız yarımfinala yüksəlməklə, özü üçün ən azı bürünc medalı təmin etsə də növbəti mərhələdə rəqibinə uduzub.

Millimizin digər bokşçuları Əli Zamanov (52 kq), Əzrək Bəbirov (56 kq) və Murad Allahverdiyev (81 kq) birinciliyi 5-ci yerdə bitiriblər. Onlar dörddəbir finalda müvafiq olaraq, Yevgeni Jorov, Aleksey Şendrik (hər ikisi Rusiya) və Denis Şalabaya (Ukrayna) uduzublar.

Bununla da, komandamız yarışı 1 bürünc medalla başa vurub.

Qeyd edək ki, yarışa 52 ölkədən 414 (274 oğlan, 140 qız) bokşçu qatılmışdı.

## Bakıda keçiriləcək bədii gimnastika üzrə dünya kuboku yarışları "Tokio-2020"yə təsnifat xarakteri daşıyacaq




*Mayın 7-9-da keçiriləcək dünya kuboku yarışlarında iştirak edəcək Azərbaycan milli komandasının heyəti açıqlanıb. Ölkəmizi fərdi proqramda Zöhrə Ağamirova və Arzu Cəlilova təmsil edəcəklər.*

Ləman Əlimuradova, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Məryəm Səfərova və Darya Sorokinadan ibarət qrup hərəkətləri komandamız da medallar uğrunda mübarizə aparacaq.

Turnir "Tokio-2020" Yay Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyacaq.

Dünya kuboku yarışlarının ilk 2 günündə təsnifat mərhələləri baş tutacaq və çoxnövçülükdə ən yüksək xal toplamış 8 fərdi gimnast, həmçinin qrup komandaları final mərhələsinə adlayacaq. Yarışın sonuncu günündə isə həlledici final mərhələsinin qalibləri müəyyənləşəcək.

Qeyd edək ki, qeydiyyat siyahısına əsasən turnirdə 38 ölkədən 67-si fərdi və 123-ü qrup komandasının (21 qrup) üzvü olmaqla 190 gimnastın iştirakı gözlənilir.

Xatırladaq ki, ənənəyə uyğun olaraq, bu kubok yarışlarında da ən çox icra xalını yığmış gimnast və qrup komandasına ənənəvi "AGF Trophy" Kuboku təqdim olunacaq.

## MOK-un sosial media təcrübəsi beynəlxalq miqyasda yüksək qiymətləndirilir

***Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin (MOK) ekspertləri dünya ölkələrinin Milli Olimpiya komitələrinin sosial media və marketinq fəaliyyəti üçün vahid təlimat kitabçasının hazırlanması prosesində iştirak edəcəklər.***

Bu barədə razılıq Azərbaycan MOK nümayəndələri ilə Milli Olimpiya Komitələri Assosiasiyasının (ANOC) üzvləri arasında onlayn formatda keçirilmiş görüşdə əldə olunub.

Görüşdə Azərbaycan Milli Olimpiya Komitəsinin Marketinq şöbəsinin direktoru Mehman Kərimov və şöbənin mütəxəssisi Səkinə Vəliyeva iştirak ediblər, ANOC-u isə Gustavo Harada və Andres Santi təmsil ediblər. Mehman Kərimov ANOC nümayəndələrinə MOK-da sosial media və marketinq işinin qurulması prinsipləri haqqında məlumat verib, bu sahədə dünyanın qabaqcıl təcrübəsi ilə yanaşı, MOK-un bu işə gətirdiyi yeni yanaşmaları da diqqətə çatdırıb.



ANOC nümayəndələri Azərbaycan MOK-un sosial media təcrübəsinin zənginliyini vurğulayaraq hazırda dünyanın ayrı-ayrı ölkələrinin Milli Olimpiya komitələrinin bu sahədə səmərəli fəaliyyətinin təşkili məqsədilə vahid təlimat kitabçası üzərində işin başlandığını qeyd ediblər. ANOC nümayəndələri MOK ekspertlərinin də bu işdə yaxından iştirak etməsinin əhəmiyyətini bildiriblər.

Görüşdə, həmçinin iki qurum arasında sosial media və marketinq sahəsində əməkdaşlığın istiqamətləri və digər məsələlər müzakirə olunub.

# UEFA Konqresi və AFFA Super liqa ideyasına qarşıdır



*İsveçrənin Montrö şəhərində UEFA-nın 45-ci Konqresi keçirilib. AFFA-nın prezidenti Rövnəq Abdullayev, vitse-prezidenti Elşad Nəsirov və icraçı vitse-prezidenti Elxan Məmmədov konqresdə iştirak ediblər.*

Qitə futbol təşkilatının ali qurumu ilk işi olaraq, bir sıra aparıcı Avropa klublarının Superliqa yaratmaq ideyasını pisləyərək, bəyanat qəbul edib. Bəyannamədə ideya təhlükəli hesab edilərək, onun futbolun "avropalılıq" ideyasına, idman dəyərlərinin aliliyi prinsiplərinə zidd olduğu bildirilib. 55 assosiasiyanın və konqres üzvlərinin birgə imzaladığı bəyannaməyə qədər UEFA bununla bağlı ilk reaksiyasını da nümayiş etdirmişdi.

Qeyd edək ki, aprelin 18-də İtaliyanın "Yuventus", "Milan" və "İnter", İspaniyanın Madrid "Real"ı, "Barselona", Madrid "Atletiko"su, İngiltərənin "Mançester Yunayted", "Mançester Siti", "Arsenal", "Liverpul", "Tottenhem" və "Çelsi" klubları birgə müqavilə imzalayaraq yaydıqları bəyanata əsasən, Avropada yeni turnirin - Super Liqanın yaradıldığını elan ediblər.

Bundan təşvişə düşən UEFA qərarı qəbuledilməz sayaraq, qeyd edilən kollektivləri intizam və cəza tədbirləri ilə hədələyib. Bununla bağlı Azərbaycan futbol qurumları da bəyanat yayıblar. AFFA, PFL və Premyer liqada çıxış edən klublar FIFA və UEFA-nın nizamnamə və əsasnamələrinə sadiq olduqlarını bildiriblər. AFFA-nın rəsmi saytında dərc edilmiş məlumatda deyilir ki, Azərbaycan futbol təşkilatları bütün futbol yarışlarının beynəlxalq səviyyədə tanınan qanunlar çərçivəsində keçirilməsini, futbolda idman prinsiplərinin rəhbər tutulmasını, mövcud vəziyyətdə UEFA ilə həmrəy olduğunu və UEFA-nı birmənalı şəkildə dəstəklədiyini bildirir: "Avropa futbolunun əsas dəyərləri həmrəylik, ədalətli oyun və sosial məsuliyyətdir və bu proses uzun illərdir uğurla davam edir. Bir daha bəyan edirik ki, AFFA olaraq, özündə separatçılığı ehtiva edən istənilən fəaliyyəti şiddətlə qınayırıq".

UEFA Konqresinə gəldikdə, əvvəlcədən müzakirəsi planlaşdırılan bir sıra qərarlar da qəbul edilib. İcraiyyə Komitəsinə dördillik müddətə 8 mandat təsdiq edilib: Qabriele Qravina (İtaliya), Karl-Erik Nilsson (İsveç), Aleksandr Dyukov (Rusiya), Deyvid Gill (İngiltərə), Zbiqnev Bonek (Polşa), Rayner Kox (Almaniya), Sərvət Yardımçı (Türkiyə) və Yust Spee (Niderland). Belçikadan Mehdi Bayat 14 səslə 8 nəfər sırasında yer ala bilməyib.

FİFA-nın vitse-prezidenti kimi 2-illik mandat səsvermə ilə 4 Britaniya assosiasiyasından Deyvid Martinə (Şimali İrlandiya) verilib. FİFA Şurasında 4-illik üzvlük üçün qadın mandate yenidən Evelina Kristillinə (İtaliya) nəsib olub. FİFA Şurasında adi 4-illik mandata isə Rizvan Burlyanu (Rumıniya), Georgios Kumas (Kipr), Peter Peters (Almaniya) və Deyan Saviçeviç (Monteneqro) sahib çıxıblar.

Bundan əlavə, Avropa Klubları Assosiasiyasının 3 il müddətinə UEFA İcraiyyə Komitəsində üzvlüyünə akklamasiya yolu ilə Nasir Əl-Xəlaifi və Karl-Hayns Rummenigge təsdiq ediliblər. Xavyer Tebas isə bu qurumda Avropa liqası təmsilçisi kimi 4 il müddətinə fəaliyyət göstərəcək. Avropa futboluna xidmətlərinə görə, Mixael van Praaq UEFA-nın fəxri üzvü qəbul olunub.

Bunlardan əlavə, 2021-2022-ci illər büdcəsi təsdiqlənib. UEFA Nizamnaməsinə dəyişikliklər edilib.

Növbəti Konqres gələn il mayın 11-də Avstriya paytaxtı Vyanada keçiriləcək.

# "Avro-2020": Yeni şəhər və dəyişən məkanlar



*UEFA Avropa çempionatının final mərhələsinin oyunlarının tamaşaçısız keçirilməsinə razılıq verməyəcəyini qəti ifadə etdikdən sonra təşkilatçılara müraciət etmişdi.*

Qurumun İcraiyyə Komitəsi aldığı cavablar əsasında məsələyə videoformatda baxıb. Son olaraq, Almaniyanın Münxen şəhəri ən azı 14 min 500 tamaşaçını arenaya buraxa biləcəyini bəyan edib və onun ev sahibliyi təsdiq edilib.

Komitə qərara alıb ki, Bilbao şəhəri tamaşaçıları stadiona buraxmaqdan imtina etdiyi üçün bu şəhərdə keçirilməsi planlaşdırılan, "E" qrupunun 3 və 1/8 finalın 1 oyununu İspaniyanın digər şəhərinə - Sevilyanın "Estadio La Kartuxa" stadionuna keçirsin. Stadionun tutumunun 30 faizinə qədər doldurulmasına icazə veriləcək.

"E" qrupunun daha 3 matçı İrlandiya paytaxtı Dublində keçirilməli idi. Bu qarşılaşmalar Rusiyanın Sankt-Peterburq şəhərində baş tutacaq. Dublinə planlaşdırılan 1/8 final görüşünü isə Londonun "Uembli"si evsahibliyi etməyə razılıq verib.

UEFA bildirib ki, Bilbao və Dublindəki matçlara biletlər ləğv edilib və onların sahiblərinə tam həcmdə kompensasiya ödəniləcək. Həmin biletlərin sahiblərinə həm də başqa şəhərlərə keçirilmiş müvafiq oyunlara canlı növbələr qaydasında üstünlük veriləcək.

Məlumdur ki, UEFA-nın müraciətinə ilk müsbət cavab verənlər arasında təşkilatçı şəhərlərdən biri kimi Bakıda arenaya tutumun 50 faizinə qədər azarkeş buraxılacağı bildirilmişdi. Bakıya yalnız iştirakçı ölkələrin vətəndaşları gələ bilər və onlar "COVID-19" testi verəcəklər.

Sankt-Peterburq da tribunaların 50 faizinədək doldurulmasına icazə verib. Aprelin sonuna qədər bu rəqəm artırıla bilər. Budapeşt tam olaraq arenanın doldurulmasına razılıq verib. Amsterdam, Buxarest, Kopenhagen və Qlazqo 25-33 faizə hazırdırlar və aprelin sonuna qədər daha yüksək rəqəmlərə çatmağın mümkünlüyünə də baxacaqlar.

London qrup və 1/8 final görüşlərinə 25 faizlik kvotanı müəyyən edib. Lakin iyunun əvvəlində 1/2 final və final oyunlarına daha çox tamaşaçının arenaya buraxılması üçün vəziyyəti qiymətləndirəcək.

# "Avro-2020": Hakimlər bəllidir

## *Tarixdə ilk qadın və hakim mübadiləsi*



UEFA-nın Hakimlər Komitəsi qitə çempionatının fimal mərhələsində oyunları idarə edəcək hakimlərin adlarını açıqlayıb. Cəmi 18 referi və köməkçiləri 51 matçı idarə edəcəklər.

Siyahıda Almaniya (Feliks Brıx və Daniel Zibert), İngiltərə Maykl Oliver və Entoni Teylor), Niderland (Byorn Keypers və Danni Makkeli), İspaniya (Karlos Del Serro və Antonio Mateu Laos), Rumıniya (İştvan Kovaç və Ovidiu Xaseqan) 5 referi ilə təmsil olunacaqlar. Bunlardan savayı, 8 ölkə 1 briqada ilə təmsil olunacaq: Slavko Vinçiç (Sloveniya), Orel Qrinfeld (İsrail), Artur Soareş Diaş (Portuqaliya), Sereey Karasyov (Rusiya), Daniele Orsato (İtaliya), Kleman Türpen (Fransa), Cüneyt Çakır (Türkiyə) və Andreas Ekberq (İsveç).

Bundan əlavə, qarşılıqlı razılıq əsasında, UEFA və KONMEBOL qitə yarışlarında hakim mübadiləsi edəcəklər. Argentinalı Fernando Rapalyini və briqadası "Avro-2020" hakimləri cərgəsinə qoşulacaq. İspaniyalı Xesus Xil Mansanonun heyəti isə 2021-ci ildə Argentina və Kolumbiyanın birgə təşkil edəcəyi Cənubi Amerika çemionatının oyunlarının idarə edəcəklər.

Lakin qitə futbolu üçün daha maraqlı yenilik, tarixdəilk dəfə bir qadının kişilərin qitə çempiontının final mərhələsinə cəlb edilməsidir. Stefani Frappar (Fransa) 4-cü referi qismində meydan kənarında oyunları idarə edəcək.

Frappar Fransa aşa liqalarından ta ən elitaya qədər meydanda hakimlik etmiş ilk qadın referi olub. 2019-cu ildə isə ilk dəfə qitə səviyyəsində UEFA Superkuboku qarşılaşmasına cəlb edilib. Onun karyerasında Çempionlar liqası (dekabr 2020-ci il, "Yuventus" - "Dinamo"Kiyev) və Dünya kuboku seçmələri (mart 2021-ci il, Niderland - Latviya) görüşləri də var.

Qeyd edək ki, hakimlər briqadasında referi ilə yanaşı, ənənə üzrə, iki laynsmen və 4-cü hakim, stadionda ehtiyat ehtiyat köməkçi və daha 4 videodəstək (VAR) hakimi yer alacaq.

Hakimlərin hazırlığı prosesi mayın 10-13-də İstanbulda olacaq. Onlar iyun ayının 7-dən 1/4 finallar başa çatana qədər İstanbulda qərargahda yaşayacaqlar. Daha sonra qalan briqadalar həlledici matçlar üçün Londona yollanacaqlar.

# Avropa kuboklarında vahid liqa olacaq

***İkiillik müzakirələrə yekun vuran UEFA İcraiyyə Komitəsi aprelin 19-da Avropa klub kuboku turnirlərinin formatına dəyişiklik etmək qərarına gəlib. Yeni format 2024-2025-ci illər mövsümündən qüvvəyə minəcək.***

Çempionlar liqasının iştirakçılarının sayı 32-dən 36-ya çatdırılacaq. Buna qədər qrupda 4 komanda olmaqla, 6 oyun keçirilirdisə, qərara görə, artıq "vahid liqa" prinsipi tətbiq ediləcək. Hər klub ümumilikdə, 5 ev və bir o qədər də səfər olmaqla, 10 oyun keçirəcək. Bu mərhələnin 8 ən yaxşı kollektivi 1/8 finala vəsiqə əldə edəcək. 9-24-cü yerlərdə qərar tutanlar 1/8 finala düşmək üçün keçid oyunlarında qüvvələrini sınayacaqlar.

Eyni qayda ilə Avropa liqası (ümumi mərhələdə 8 oyun) və Konfranslar liqası (ümumi mərhələdə 6 oyun) dəyişəcək. Ümumi razılaşmalar nəticəsində bu turnirlərin də iştirakçı sayı 36-ya çatdırıla bilər.

Çempionlar liqası açıq turnir olacaq və komandalar bura milli yarışlarda iştirakdan asılı olmayaraq düşəcəklər. Əlavə bir yer UEFA milli assosiasiyalar reytinqində 5-ci yerin sahibinin milli çempionatında 3-cü yeri tutan kollektivə veriləcək. Daha bir vəsiqə "Çempionlar yolu" adlandırılan təsnifat mərhələsinin iştirakçı ölkəsinin çempionuna veriləcək. Yəni belə vəsiqələrin sayı 4-dən 5-ə qaldırılacaq.

Qalan iki yer son 5 il ərzində ən yüksək reytingə malik klublara (Çempionlar liqasına düşə bilməsə də, bu yarışın təsnifatlarına və yaxud Avropa və Konfranslar liqalarına çıxmış komandalara) təqdim olunacaq.

Qərarı şərh edən UEFA prezidenti Aleksander Çeferin deyib: "Təkmilləşdirilmiş format hər bir Avropa klubunun oyun nəticələri əsasında Çempionlar liqasına düşmək imkanlarını gerçəyə çevirir. Bu format Avropa futbolu ailəsinin bütün üzvlərinin uzunmüddətli həyat qabiliyyətliliyini, inkişaf və yüksəliş imkanlarını təmin edəcək".

# Allah rəhmət eləsin!

Gənclər və İdman Nazirliyinin kollektivi Ucar rayon Gənclər və İdman İdarəsinin rəisi Əhliman İbrahimova anası

**Səkinə İbrahimovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gənclər və İdman Nazirliyinin kollektivi Ağsu rayon Gənclər və İdman İdarəsinin rəisi Azər Kərimliyə atası

**Arif Kərimlinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Respublika Olimpiya İdman Liseyinin kollektivi iş yoldaşları

**Mayıl Əhmədovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Turdan-tura

# Son tura qədər dözməli

## Bundan sonra hər səhv medala bərabər itki olacaq




***Milli futbol çempionatının Premyer liqası və ölkə kuboku uğrunda yarışlarda həlledici mərhələlər başlanır. Kubok uğrunda turnirdə cavab görüşləri final rəqabətini müəyyən edəcək.***

İlk görüşlərdə qeyri-adi heç nə baş verməyib və daha güclü tərəflər yarımfinalın həlledici oyunlarına üstün durumda yollanacaqlar. Hətta deyərdim ki, ”Zirə” rəqibindən bir addım öndə olacaq. Əlbəttə, ”Sumqayıt”ın ”Qarabağ”ı sürpriz qarşısında qoyması da mümkündür. Bunun üçün kollektiv böyük qüvvə sərf etmək məcburiyyətində qalacaq. İlk görüşdə hər iki sükançının heyət baxımından da bir qədər gözlənilməz addım atması, belə düşünməyə əsas verir. Lakin ”Sumqayıt”ın qarşısında hazırda əldə etdiyi 3-cü pilləni əldən verməmək kimi bir vəzifə də var. Çempionatın ötən turunda ”Gənclik şəhəri” klubu ”Zirə” ilə mürəkkəb oyundan baş çıxararaq, yerini qoruya bildi.

Əlbəttə, son turlara qısa nəzər salmazdan əvvəl, keçən iki tura ümumi nəzər salmaq lazımdır. İlk növbədə qeyd olunmalıdır ki, ”Neftçi” qarmaqarışıq oyunlar seriyasını davam etdirir. ”Sabah”la matçda ”Qəbələ” ilə görüşün acı nəticəsini təkrarlamaqla, ”ağ-qaralar” oyun quruculuğunda problemlərini aşkar üzə çıxardı. Sükançı sabitlik üçün lazımi heyəti sapa düzə bilmir. Səbəblər Azərbaycan futbolu şəraitində fərqli ola bilər və ”mətbəx”dəki hadisələrdən xəbərimiz olmadığından çox mülahizə irəli sürmək mümkün deyil. Futbol qanunları ilə meydanda gördüklərimiz də qəribə təzadlar hissi bəxş edir. Elə buna görə yalnız onu demək olar ki, məşqçinin seçimi bir qədər səbat şübhələri doğurur. Onun üstünlük verdiyi heyətlə seçdiyi taktiki plan bir-birini tamamlamır. ”Sabah”ın qapısına Hondanın vurduğu qolu referinin hesaba alması belə, ”Neftçi”nin bəhanəsi olmamalıdır. Komanda bu matçın gedişində xətlərarası əlaqəni tamamilə yox həddinə çatdırmışdı. Qarşılaşma fərdi imkanları bəlli olan bir qrup futbolçunun bir-biri ilə meydanda vəziyyətə uyğun qurduğu planlamadan və teztez dəyişən fiziki durumundan uzağa getmirsə, böyük iddiadan danışmağa dəyməz. Üstəlik, komanda finişə doğru autsayderlərin də dişini qıcayacağını əvvəldən bilməli və buna uyğun da planlı oyun formatını seçməli idi. ”Zirə” ilə matçdakı ruh yüksəkliyi buna nümunə ola bilər. Hərçənd o görüşdə də ”Zirə”nin planının dağılması böyükhesablı məğlubiyyətin səbəbi sayılmalıdır. ”Zirə”nin belə hallar üçün ”B” planının olmaması burada qəti üzə çıxdı. Bu məqamda komandanın yerində saymağa başlaması xüsusi qeyd olunmalıdır.

Min bir zəhmətlə əldə edilən turnir cədvəli mövqeyinə uyğun olaraq, taktiki planda dəyişiklik edib, daha aqressiv oyun göstərməkdənsə, komanda get-gedə yalnız mövqe döyüşünə keçir. Bunu hər oyun əyani müşahidə etmək olur. Görünür, ”Zirə”nin gənc sükançısı karyerasının ilk ilində böyük risklərə getmək istəmir. Bununla belə, risk etmədən böyük yola çıxmaq da olmur. Hər halda, komanda üçün çox şey elə qarşıdakı turda bəlli ola bilər.

Ötən tur ”Keşlə”nin prinsipial rəqiblərindən biri üzərində qələbəsi ilə yadda qalaraq, onun quyunun dibindən çıxmasına səbəb oldu. ”Sabah” isə ”Neftçi” ilə oyunu 7 dəqiqəyə yaxın 8 nəfərlə keçirərək, heçheçəni qoruyub saxladı. Bu isə autsayderlərin finişdəki qəzəbinin bir nümunəsidir. Doğrudur, iki top fərqilə irəli çıxan kollektivin fiziki və funksional kondisiyası bir qədər artıq olsaydı, bəlkə meydanda fərqli mənzərə görə bilərdik. Lakin bu da rəqabətin həddini göstərir.

İndi isə finişə doğru bəzi qeydlərə keçək. Təqdim etdiyimiz son 4 turun matç qrafiki prinsipial iki rəqibin çempion titulu və daha ikisinin 3-cü yer uğrunda rəqabətinin aynası sayıla bilər. ”Qarabağ”la ”Neftçi”nin son görüşə qədər xal itirməyəcəyini söyləmək olmaz. ”Qarabağ”, ən azı, psixoloji ”Zirə” səddini aşmalıdır. ”Neftçi” üçün son iki tur qaynar olacaq. Hərçənd bu gedişlə komandanın bütün oyunları ”asılqan” xarakteri daşıyacaq.

Tet-a-tet dueli ”sülh”ü daha çox ”Sumqayıt”ın xeyrinə olmuş və bundan sonra qiyabi davam edəcək rəqbətdə, həm ”Gənclik şəhəri” komandasının, həm də ”Zirə”nin büdrəməsi daha çox reallığa bənzəyir. Əlbəttə, Avropaya açılan qapı baxımından bu oyunlar böyük fərq verməsə də, medal qazanmaq fürsəti, zənnimcə, hər iki komanda üçün dartı qüvvəsi və ya stimul rolunu oynamalıdır.

***BATI YAR***

### 3-cü yer uğrunda son 4 tur

| Tur | ”Sumqayıt” | | ”Zirə” | |
|---|---|---|---|---|
| 25 | ”Sabah” | *ev* | ”Qarabağ” | *səfər* |
| 26 | ”Keşlə” | *səfər* | ”Qəbələ” | *ev* |
| 27 | ”Neftçi” | *ev* | ”Səbail” | *ev* |
| 28 | ”Səbail” | *səfər* | ”Sabah” | *səfər* |

### Çempionluğun son 4 turu

| Tur | ”Qarabağ” | | ”Neftçi” | |
|---|---|---|---|---|
| **25** | ”Zirə” | *ev* | ”Keşlə” | *səfər* |
| **26** | ”Sabah” | *səfər* | ”Səbail” | *səfər* |
| **27** | ”Keşlə” | *ev* | ”Sumqayıt” | *səfər* |
| **28** | ”Neftçi” | *səfər* | ”Qarabağ” | *ev* |

### Futbol. Azərbaycan çempionatı. Premyer Liqa

**23-cü tur**

***16 aprel (cümə)***

**”Səbail” (Bakı) - ”Qarabağ” (Ağdam) 1:1** (Amil Yunanov, 38-pen.//Uroş Matiç, 42).

**”Sumqayıt” - ”Qəbələ” 2:0** (Rəhim Sadıqov, 66, Əli Qurbani, 75).

*17 aprel (şənbə)*

**”Keşlə” (Bakı) - ”Sabah” (Bakı) 0:0.**

**”Neftçi” (Bakı) - ”Zirə” (Bakı) 4:0** (Namiq Ələsgərov, 47, 77, Mirabdulla Abbasov, 74, Stiven Monroz, 90+2).

**24-cü tur**

***25 aprel (bazar)***

**”Zirə” - ”Sumqayıt” 0:0.**

**”Keşlə”- ”Səbail” 1:0** (Sezar Meza Kolli, 51).

**”Sabah” - ”Neftçi” 2:2** (Təmkin Xəlilzadə, 24-pen., Ramil Şeydayev, 30//Namiq Ələsgərov, 36-pen., 60-pen.).

**”Qəbələ” - ”Qarabağ” 0:5** (Xayme Romero, 64, Qara Qarayev, 68, Mahir Emreli, 88, 89, 90).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. ”Qarabağ” | 24 | 14 | 8 | 2 | 57-16 | 50 |
| 2. ”Neftçi” | 24 | 14 | 5 | 5 | 38-25 | 47 |
| 3. ”Sumqayıt” | 24 | 8 | 9 | 7 | 28-28 | 33 |
| 4. ”Zirə” | 24 | 7 | 12 | 5 | 24-25 | 33 |
| 5. ”Qəbələ” | 24 | 5 | 9 | 10 | 20-38 | 24 |
| 6. ”Keşlə” | 24 | 4 | 11 | 9 | 22-33 | 23 |
| 7. ”Sabah” | 24 | 5 | 7 | 12 | 22-31 | 22 |
| 8. ”Səbail” | 24 | 4 | 9 | 11 | 20-35 | 21 |

**Bombardir: 18** - Namiq Ələsgərov (”Neftçi”), **16** - Mahir Emreli (”Qarabağ”).

### Azərbaycan Kuboku 1/2 final

21 aprel (çərşənbə)

*”Sumqayıt” - ”Qarabağ” (Ağdam) 0:0.*

*”Keşlə” - ”Zirə” 1:2* (Sadio Tunkara, 45+2//Rodriqo Bonkonki, 57, Nemanya Andelkoviç, 62).

**Cavab görüşləri:** 29 aprel (cümə axşamı)

**Final**

28 may

## Kapoeyraçılarımızdan daha bir medal

Dünya Kapoeyra Federasiyasının (WCF) təşkilatçılığı ilə onlayn ”Joga Maneiro” dünya çempionatında yekun vurulub. Yarışı millimiz 3 medalla başa vurub. Ölkəmizə üçüncü medalı 76 kq çəki dərəcəsində Fərid Səlimov qazandırıb. Fərid yarışı ikinci pillədə başa vurub.

Daha öncə Oxçu Şahmuradov (82 kq) gümüş, Fərid Allahverdiyev (82 kq) bürünc medal qazanmışdılar.

## Paraatletlərimiz İtaliyada iki qızıl medal qazanıblar

Azərbaycan paraatletləri İtaliyanın Cesolo şəhərində keçirilən dünya Qran-Prisində uğurla çıxış ediblər.

Turnirdə T12 kateqoriyasında iştirak edən Kamil Əliyev uzunluğa tullanma növündə 6,98 metr nəticə göstərərək qızıl medal qazanıb. Millimizin digər üzvü, T13 kateqoriyasında mübarizə aparan Orxan Aslanov uzunluğa tullanma yarışlarında 6,78 metrlik nəticə ilə bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, K.Əliyev ”Tokio-2020” Yay Paralimpiya Oyunlarına lisenziyasını artıq təmin edib. O.Aslanov isə Paralimpiadaya lisenziya qazanmaq şansını artırıb.

## Avropa çempionatından 16 medal

Ukraynanın Xarkov şəhərində döyüş sənətləri üzrə açıq Avropa çempionatı keçirilib. Yarışda ölkəmiz 17 idmançı ilə təmsil olunub. Çempionatda idmançılarımız şaolin sanda, şaolin full və peşəkar növlərdə güclərini sınayıblar.

Yarışda Tamerlan Şahverdiyev, İbrahim Əliyev, Tofiq Niftəliyev, Engin Akdemir, Azər Baxışov, İmaməli Məmmədov, Erkin Osmanov, Azər Cəbrayılov, Nicat İbrahimli və Rəvan Nəbizadə bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Kənan



Bayramov və Turan Şirinov isə final mərhələsində uduzaraq gümüş medalla kifayətləniblər. Murad Səmədov, Tural Baloğlanov, Üveys Şərifov və Rövşən Rəhimov isə bürünc medal qazanıblar.

# Qısa-qısa

İordaniya Haşimilər Krallığının paytaxtı Əmmanda yerləşən ”İslamic Educational College Schools”un təşkilatçılığı ilə məktəbli oğlan və qızların iştirakı ilə keçirilən virtual şahmat turnirində 1-8 sinif şagirdləri arasında ”Cambridge High School”un 8-ci sinif şagirdi Sultan Şahhüseynov, 8-12-ci sinif şagirdləri arasında baş tutan oyunlarda eyni məktəbin 10-cu sinif şagirdi Aliyə Şahhüseynova birinci yeri tutublar.

On altı yaşadək yeniyetmələr arasında şahmat üzrə onlayn rapid turnirində Rauf Həsənli 7 turda maksimum xalla 1-ci, Süleyman Orucov 6 xalla ikinci, Tərlan Zülfi 5,5 xalla üçüncü yeri tutublar

Norveçli dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi ”Champions Chess Tour” onlayn şahmat seriyasının ”New In Chess Classic” turnirində 10 turdan sonra Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov 6 xalla 4-6-cı yerləri bölüşən şahmatçılar sırasındadırlar. İlk pillədə 7 xalla Maqnus Karlsendir.

Asiya Ciu-citsu İdmanı Federasiyasının Tiencin şəhərində təşkil etdiyi açıq Çin çempionatda bir idman növünün ”Gi” versiyası üzrə yarışda Çində müvəqqəti yaşayan Nigar Babayeva (göy kəmər) 68 kq çəkidə və sərbəst çəkidə, Rəcəbəli İskəndərov (ağ kəmər) isə 70 kq çəkidə qalib olublar.



# İDMAN

**№ 8 (7103)** *27 aprel 2021*

## “Avro-2022”: Final mərhələsinə ümidlə getmək üçün nə etməli



***Tarixdə ilk dəfə yeni formatda keçirilən seçmə qrup mərhələ yarışını məğlubiyyətsiz başa vuran Azərbaycan milli futzal komandası qitə çempionatına nikbin ovqatla yollanır.***

Ümumiyyətlə, komandanın sükançısının da qeyd etdiyi kimi, yeni format futzal komandalarına yeni şans verir. Bununla kollektivlər optimal hazırlıq formasında qalmaqla, cəmi bir neçə gün deyil, aylarla davam edən yarış formatında həm hazırlıq, həm oyun obyektivliyinə nail olurlar. Bu, həm də qitə futzalının inkişafına bir töhfədir. Bu format sağlam yarış mühiti yaratmaqla, həm də komandalara daha uzunməqsədli planlar cızmağa kömək edir. Xüsusən, pandemiya şəraitinə təsadüf edən yeni qaydalar milli komandamıza da bir fürsət oldu. Buna qədər demək olar ki, bir ilə yaxın müddət ərzində normal məşq şəraiti belə olmayan kollektiv, 3 ay ərzində nəinki optimal forma toplaya bildi, həm də düzgün qurulmuş oyun planı sayəsində kritik günləri geridə qoydu. Oyun planında bir sıra uğurlu gedişləri də izləmək xoş idi. Lakin bütün bunlar gələn ilin əvvəlinə qədər inkişaf etdirilməlidir. Bunun üçün millinin normal hazırlıq planı cızılmalıdır. Bu mənada maksimum qüvvə daha güclü rəqiblərlə oyunlara yönləndirilməlidir.

Komanda mümkün qədər təlim-məşq toplanışlarında seriyalı oyunlara da üstünlük verməlidir. Yığma üzvlərinin klublardakı oyunları da nəzərə alınmaqla, bu plan optimal qrafik üzrə təşkil edilməlidir.

Qitə çempionatının final mərhələsi 2022-ci il yanvarın 19-dan fevralın 6-dək Niderlandda (Amsterdam və Qroningen şəhərləri) keçiriləcək. Yarışın 16 komandasından 15-nin adı bəllidir. Buna qədər xəbər verdiyimiz kimi, də ilk dəfə bu hüququ qonşu Gürcüstan ilə Bosniya və Herseqovina milliləri sahib çıxıblar. İlk dəfə finallara yollanacaq komandalar arasında Finlandiya və seçmə qrup yarışında

futzalçılarımızın rəqibi olmuş Slovakiya da yer alır. Ev sahibləri və millimizlə yanaşı, sonuncu çempion Portuqaliya, habelə Xorvatiya, İtaliya, Qazaxıstan, Rusiya, İspaniya, Polşa, Sloveniya və Ukrayna da qitə futzal sammitinin iştirakçılarıdır.

***BATI YAR***

### Futzal. Avro-2022. Seçmə qrup mərhələsi

**6-cı tur**

**13 aprel: Moldova - Slovakiya 0:4.**

**14 aprel**

**Azərbaycan - Yunanıstan 4:0 *(Fineu, 2.14, Qusis, 13.10-öz qap., Atayev, 15.23, Çovdarov, 24.03).***

***Bakı İdman Sarayı.***

**Hakimlər:** Yaroslav Vovçok, Yevhen Hordienko (Ukrayna), Knyaz Əmiraslanov (Azərbaycan).

**Azərbaycan milli komandasının heyəti:** Emin Kürdov, Eduardu Melu Borceş, Rizvan Fərzəliyev (kap.), Everton Kardozu, Fineu de Arauju - *Rövşən Hüseynli, Cavad Məmmədov, Bolinya, Əmir Şücai, Ramiz Çovdarov, Xətai Bağırov, Hadi Əhmədi, Tofiq Mikayılov, İsa Atayev.* **Baş məşqçi:** Joze Alesiu Da Silva.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| **1. Azərbaycan** | **6** | **5** | **1** | **0** | **22-6** | **16** |
| **2. Slovakiya** | **6** | **3** | **2** | **1** | **21-9** | **11** |
| 3. Moldova | 6 | 1 | 2 | 3 | 14-22 | 5 |
| 4. Yunanıstan | 6 | 0 | 1 | 5 | 4-24 | 1 |

## Karateçilərin Belarusda medal yağışı

***Yeniyetmə və gənclərdən ibarət karate üzrə seçmə komandamız Belarusun paytaxtı Minskdə ”Unmei Cup” Beynəlxalq turnirində 22 medal qazanıb. Karateçilərimiz yarışda 9 qızıl, 6 gümüş və 7 bürünc medala sahib olublar.***

14-15 yaşlı yeniyetmələrdən Amin Yadigarlı (52 kq), Əzim Rahib (70 kq), Aysu Əliyeva (47 kq), Fidan Rüstəmova (54 kq), qızların kumite komandası, eləcə də 16-17 yaşlı gənclər arasında Fərid Savadov (55 kq), Ramil Baxşəliyev (61 kq), Vahid Həsənov (76 kq) və oğlanların kumite komandası yarışın qalibi olublar.

Gümüş medalı 14-15 yaşlı yeniyetmələrdən Nihad Kərimzadə (70 kq), oğlanların kumite komandası, 16-17 yaşlı gənclərdən Nicat Kərimli (61 kq), Xumar Əlibəyova (53 kq) və Vahid Həsənov (mütləq çəkidə), 18-21 yaşlı gənclərdən isə Hüseyn Hüseynzadə (84 kq) qazanıblar.

14-15 yaşlı yeniyetmələrdən Məhəmməd Xamoyev (63 kq), Fərid Talıbov (68 kq), Ramil Baxşəliyev (mütləq çəkidə), 18-21 yaşlı gənclərdən Renata



Ərəbli (-61 kq), Həsənəli Həsənov (kata) və Zəhra Qurbanzadə (kata), böyüklər arasında isə Neda Rezai (kata) bürünc mükafat alıblar.

Bu nəticə ilə Azərbaycan ümumi komanda hesabında birinci olub.

## Aydın Süleymanlı “Vladimir Bato Kontiç” turnirinin qalibi olub



Azərbaycan şahmatçısı Aydın Süleymanlı Monteneqronun Nikşiç şəhərində keçirilən ”Vladimir Bato Kontiç” turnirində uğurla çıxış edib.

İsveçrə sistemi üzrə keçirilən və 6-sı qrossmeyster olmaqla, 22 iştirakçının mübarizə apardığı yarışda gənc şahmatçımız 9 turdan 6,5 xal toplayaraq qalib olub. İstedadlı şahmatçımız bu nəticə ilə, həm də qrossmeyster balını toplayıb. Bə qələbə ilə Aydın Süleymanlı reytinqini də 15 vahid artırıb.

## Taekvondo üzrə Olimpiya təsnifat turniri keçiriləcək

Komandamızı yarışda 3 idmançı təmsil edəcək. Belə ki, qadınların yarışında Patimat Abakarova (49 kq) və Fəridə Əzizova (67 kq) qüvvələrini sınayacaqlar. Kişilərin mübarizəsində isə Avropa, dünya və Olimpiya çempionu Radik İsayev (80 kiloqramdan yuxarı) mübarizə aparacaq.



Turnir 3 gün davam edəcək.

## Dəri top

Aprelin 14-də türkdilli ölkələrin futbol assosiasiyaları arasında anlaşma memorandumu imzalanıb. Videokonfrans formatında təşkil olunmuş tədbirdə Azərbaycan, Türkiyə, Macarıstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Türk Şurasının imzaladığı memorandum qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, birgə kompleks tədbirlərin həyata keçirilməsi, təcrübə mübadiləsi və digər məsələləri əhatə edir.

UEFA-nın Ədalətli Oyun və Sosial Məsuliyyət Komitəsinin 2021-ci ildə ilk iclası keçirilib. Komitənin sədri, AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədovun rəhbərliyi ilə keçirilən iclasda cari məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Premyer liqasında məşqçi və futbolçu heyətinin ”COVİD-19” pandemiyası dövründə müvafiq tibbi protokola uyğun testdən keçirilməsi məqsədilə AFFA klubların hər birinin hesabına 15 min manat köçürüb.

Avro-2020-nin final mərhələsində 2 qrup oyununu Bakı Olimpiya Stadionunda keçirəcək futbol üzrə Uels milli komandasının 8 nəfərlik nümayəndə heyəti Bakıda səfərdə olub. Uelsli qonaqlar məşqlərin keçiriləcəyi meydanlara və komandanın məskunlaşacağı otelə baxış keçirib, həmçinin Bakı Olimpiya Stadionunda olublar. Aprelin 22-də AFFA-nın inzibati binasında icraçı vitse-prezident Elxan Məmmədovun İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Muriel Peneveyre ilə görüşündə ”Avro-2020”nin Bakıda keçiriləcək oyunlarına İsveçrə milli komandasının, o cümlədən isveçrəli azarkeşlərin gəlişi ilə bağlı müzakirələr, fikir mübadiləsi aparılıb.

Qəzetin təsisçisi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

“İdman”ın kompüter mərkəzində yığılıb-səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 762
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.